**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 177 (2025) 7 dekabr 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

# MUĞAMIN SÜLEYMAN ABDULLAYEV NƏFƏSİ

(əvvəli ötən saylarımızda)

**- Dədə, mən bilirəm ki, sənin oğlun Cümşüd də oxuyur. Onun gələcəyini nə təhər görürsən? Süleyman ola biləcək?**

- Yox, heç vaxt ola bilməyəcək. Çünki biz sənətə əziyyətlə gəlmişik, öyrənə-öyrənə gəlmişik. Bunların meyli özlərini özlərini aldatmağadı. Gedirlər toylara, diskləri qoyurlar, Allah verir texnikaya, toyu yola verib çıxıb gəlirlər. İndiki şadlıq evləriynən, keçmiş toyxanaların arasında yernən göy qədər fərq var. İndi kimdi xanəndədən oxumaq tələb edən, mahnı sifariş verən, oxuyanın səhvini tutan? Başlı-başını saxlasındı. Azərbaycandakı şadlıq sarayları o duzsuz oxuyanları mikrafon hesabına ətə-qana doldurub. Qarmon çala bilməyən gedib oxuyur, nağara çala bilməyən gedib oxuyur, tar çala bilmir, gedib oxuyur. Əl boyda mikrafonun hesabına olur oxuyan. Onlara da qol-qanadı şadlıq evlərinin yiyələri verir. Fonoqramma oxuyanların anasını ağladır. Şadlıq evləridi də, nə istiyirsən oxu. Saa heç kim heç nə demiyəcək. Keçmiş məclislər keçmişdə qaldı. Qız oxuyanlar da ki, tay ağını çıxardıb. Bu haram puldu. Mən disk hesabına oxuyanlara pis mənada yox, ağsaqqal kimi deyirəm, özlərini aldatmasınlar. Səsləri yerində olmayanda oxumasınlar. Halallığı unutmasınlar...

**- Dədə, mənə konkret cavab ver. Oğlun Cümşüd bu yolu axıra kimi gedəcək, yoxsa yox?**

- Maa elə gəlir ki, yox. O, bu oyunlara dözə bilməyəcək. O, bu meydanın adamı döyül. Mən ona həmişə sözümü deyirəm.

**- Dədə, toylardan söz düşmüşkən, deyə bilərəsən indiki toylarımızın dadı-duzu niyə qaçıb?**

- Ona görə ki, hər şey reklamdı, bəhsəbəhsdi, hamısı bir-birinə oxşuyur. Oxuyanlar da, açılan süfrələr də tay adamın canını boğazına yığıbdı. Heç kim toydan ləzzət almır. Nə bilim vallah, adam baxıb mat-məəttəl qalır. Toylarımız az qala şouya dönüb. Hərə bir hoqqabazlıq eliyir. Nə isə.... Allah hamının toyunu mübarək eləsin. Amma belə çox getmiyəcək. Bir də mən şadlıq evlərinin sahiblərindən daha çox xalqımı qınıyıram. Bu xalq heç kimin xətrinə dəymək istəmir. Bu xalq hamıya əl çalır, hamının konsertinə gedir, hamıya gül göndərir, boğazından kəsib bilet alır. Üzü utanır dana. Amma nə oxuyanlar utanmır, nə də şadlıq evlərində camaatın evinə girənlər. Xalq sözünü deməlidi. Deməlidi ki, mənim toyuma gəlmisən, adam balası kimi mahnı oxu. Maa disk lazım olsa, evimdə qoyub qulaq asaram. Heç kim demir. Onlar da bundan istifadə edir. Yenə deyirəm, taxsır camaatdadı, taxsır bizdədi.

**- Dədə, indi bir yerdə işləyib eləyirsən, yoxsa?..**

- Yox. Haqq üçünə çox dəvət eliyiflər. Amma mən getməmişəm. Asəf Zeynallının direktoru da, müavini də dəfələrlə ağız açdı, amma mən konsertlərə, ora-bura, yəni camaatımızın xeyir-şərinə çox gedirəm deyin, razı olmadım ki, xalxın uşaxları maa umud oluf ortalıqda qalsın. Mən heç kimi aldada bilmərəm. Bayaq yadımdan çıxdı, muğamdan danışanda demədim. İndi qəfildən yadıma düşdü, qoy deyim sən də yadında saxlıyıf yeri gələndə deyərsən. Sözlə musiqi bir-birini tamamlayan iki qanatdı. Bir-birindən heç vaxt ayrı ola bilməz. Söz, qəzəl musiqini tamamlayır, musiqi də sözü, qəzəli. Düzdü, tarı, kamançanı lap o biri alətləri də tək çalmaq olar. Amma o solo ifada barmaqlar danışır. Çaldığın mahnını barmaqlar deyir. Sözü eşitməsən də barmaqların səsi musiqidən sənə hər şeyi çatdırır. Biryolluq bilmək lazımdı ki, sözlə musiqi bir candı. Sözlə musiqi anayla baladı, onları bir-birindən ayırmaq olmaz. Sən fikir ver də, Möhlət tarda çalır və yaxud Elçin çalır, Feyruz çalır, eləcə də o biriləri. Musiqi ilə bir yerdə barmaqlar Möhlətin demək istədiklərini bir-bir saa deyir. Sənnən Möhlətin barmaqları danışır. Bunları bir-birindən ayırmaq qeyri-mümkündü.





**- Dədə, arada sənnən telefonla danışanda dedin Aqil Abbasa bir ismarıcım olacaq. O nə məsələdi?**

- Belədi də. Özün bilirsən ki, mən Aqili lap çox istiyirəm. Bilirəm ki, o da məni çox istiyir. Televizorda Aqilin bir verilişi varıydı. Ağdamda çəkmişdilər.

Sərhəddi keçib dedi ki, Dədə Süleyman deyir ki, Qarabağın ayaqqabısı yoxdu ayağına geyinib gəlsin dalımızca. Mən də Dədəyə deyirəm ki, mən getdim Ağdama, o da durub gəlsin. Bəzi ağzıgöyçəklər bu verilişdən sonra maa dedilər ki, guya Aqil maa ayrı cür işarə vuruf. Amma onlar başa düşmədi ki, Aqil də, mən də demişəm ki, Qarabağ bizim dalımızca gələn döyül, biz ora getməliyik. Özü də sən hamıdan yaxşı bilirsən ki, mən Murova qədər, döyüş gedən hər yerdə əsgərlərimizin yanında olmuşam. Gecə ay işığında da oxumuşam, onlarla bir səngərdə onların arzularını yerinə yetirmişəm. Mənim üçün dünyada ən böyük nisgil, ən böyük ağrı ermənilərin indi yiyə çıxdıqları torpaxlarımızdı. Ona görə də deyirəm ki, biz ora qayıtmıyınca, rahatlıq tapan döyülük. Hələ Füzuli alınmamışdı, orda müdafiə dəstəsinin rəhbəri varıydı Bəylər müəllim, o, ratsiyaynan ermənilərlə danışanda aldım ratsiyanı onun əlinnən alıf oxudum:

**Bilsin bütün aləm, sonsuz asiman,**
**Ay Qarabağın hər nöqtəsi bizimdir...**

- erməni o biri tərəfdən dedi ki, ara, başına pırlanım, nə qədər istiyirsən oxu, gözəl oxuyursan. Amma Qarabağ bizim olajax... Mən o bombanını altında, el-obanın yanında olanda çoxları bilmirdi müharibə nədi. Hətta Yuxarı Yağlıvənddə bir qohumumun həyətindəydik, bir də gördüm ki, qavalımı alt otağa düşürüb gizlədir. Soruşdum ki, niyə belə eliyirsən? Dedi ki, bu köpəyuşaxları top atırlar. Allah eləməmiş, qavalın zədələnər. Nə isə...

Bax, dediyim odu ku, adamlar gərək hər şeyi öz mənasında, paxıllıq, rişxənd eləmədən başa düşsünlər, anlasınlar. Yoxsa sözə qulf qoymax, nə bilim ürək qırmax nəyə lazımdı ki? Adını çəkməyəjəm.

Bir eloğlum gecəyarısı maa zəng vuruf ku, ə, bu yaşda bu nə addı saa verdilər? Tay buna nə deyəsən? Eləcə dedim ki, mən yaşımın çiçəklənən dövrünü yaşıyıram, nə də məsləhətdi onu da veriflər. Allah canlarını sağ eləsin. Hələ qavaxda o qədər illərim var kı. Sözüm deyəsən ona çatdı, o saat telefonu qoydu üstünə. Yəqin sən də bildin də nə dedim. Saa da bir məsləhətim var. Heş vaxt heş kimin ürəyinə dəymə. Allahdan böyük kimsə yoxdu. Allahın ətəyini əlindən buraxma. Dünyaynan-zadnan da işin olmasın. Məqaləni yaz, şerini yaz, arada dosta-tanışa, lap elə maa zəng vur çay içək, söhbət eliyək. Allah haqqı bu gün əməlli-başlı istirahət elədim. Evdə qavağıma bir tikə çörək qoyurlar boğazımnan keşmir. Amma indi çörək də yedik, çay da işdik. İstiyirsən saa arax da gətirsin. Arxayın ol e, pulum var. Bir də bu "Ləvəngi"də hamı məni tanıyır. Məsləhət olmuyan şeyi süfrəyə gətirməzlər. Sən Allah düzünü de, ləvəngi xoşuna gəldi?

- Sağ ol, Dədə, ləvəngi də əlaydı, söhbətimiz də. Allah saa ömür versin. Allah qismət eləsin, ürəyimizdəki o Qarabağ nisgili tezliklə öz şəfasını tapsın. Bayaq danışdıqca necə kövrəldiyini yaxşı gördüm. Sağ ol, Dədə! Sən hələ Füzulidə də oxuyacaqsan, inşallah.

**Bəli, Dədə Süleymanla dost kimi, qardaş kimi, eloğlu kimi, onun səsinin dəlisi kimi söhbətləşdik. Bir də onda baxdım ki, şər qarışıb, saatlar keçib. Düzünü deyim, Dədənin nə söhbətindən, nə də zümzüməsindən doymurdum, ayrılmaq istəmirdim. Amma bütün görüşlərində bir zaman çərçivəsi var. Bizim bu söhbətimizin çərçivəsi olduğu kimi.**

**Əbülfət MƏDƏTOĞLU**